# Vətəni ərənlər qoruyar

**Ana sevgisi uca, Vətən eşqi ucadan da ucadır. Heç əbəs deyil ki, "Ana Vətən", "Ana Torpaq" deyərlər bizlərdə. Ta qədimdən ərənlər üçün bu məfhumlar and yeri, qeyrət yeri olub. Yağı düşməndən qoruyub, ondan ötrü canlarından keçib, şəhid olublar el igidləri. Şəhidlik isə qəhrəmanlığın, vətənpərvərliyin zirvəsidir.**

Düşmən qarşısında sipər duran vətənsevər övladlarımız, oğullarımız bu gün də çoxdur. Ali Baş Komandan, Zati-aliləri İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizin şanlı zabit və əsgərləri indi öz mövqelərində möhkəm durur, erməni təxribat və hücumlarının qarşısını layiqincə alır. Hazırda müasir silah-sursat və hərbi texnika ilə təchiz olunmuş ordumuz uzun illər düşmən tapdağında qalan torpaqlarımızı geri qaytarmağa tam qadirdir. Bu sözlərə sübut kimi son dövrdə və xüsusilə ötən ilin 2-5 aprelində baş vermiş döyüşləri göstərmək olar. Həmin tarixdə həyata keçirilən əməliyyatlar zamanı iki yüksəklik, o cümlədən Lələtəpə yüksəkliyi azad edilmiş və 10 minlərlə hektar torpaq Azərbaycan Ordusunun nəzarəti altına keçərək böyük taktiki üstünlük əldə olunmuşdur. Bu döyüşlərdə ermənilərin onlarca texnikası və yüzlərlə canlı qüvvəsi məhv edilmişdir. Əfsuslar ki, Azərbaycan ordusunun da həmin əməliyyatda itkiləri, şəhidləri oldu.

Əbdülməcid Nadirşah oğlu Axundov da aprel döyüşlərində şəhid olan əsgərlərimizdən biridir. 1993-cü il oktyabrın 15-də Sumqayıt şəhərində doğulmuşdu Əbdülməcid. 2015-ci ildə Texniki Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra əsgərliyə çağırılan Əbdülməcid Tərtər rayonunda xidmət etmişdir. O, 2016-cı il 2 aprelində Tərtər rayonu Qapanlı və Seysulan kəndləri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına həlak olmuşdu. Azərbaycan Prezidentinin sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalla təltif edilmişdir.

Bu quru sözlər, cansız rəqəmlər hamısı bioqrafik fakt olsa da, bir igidin ömrünü tam əks edə bilməz. Ona görə də şəhidin valideynləri ilə görüşməyə qərar verdim. Nəhayət, Novruz bayramı qabağı Ceyran ana ilə müsahibəm baş tutdu.

Şəhiddən yazmaq, onun ailəsindən, valideynlərindən müsahibə almaq çətin psixoloji məqamdır. Belə müsahibələrdə emosiyalar, hisslər bir-birinə qarışır. Müsahibəyə gedəndə çox gərgin idim, "görəsən necə qarşılayacaq məni, ananın gözünə dik baxa biləcəyəmmi, birdən bir söz deyərəm, sual verərəm - qırıq ürəyini bir az da qırar" kimi düşüncələr məni sıxırdı. Ancaq Ceyran ananın saf, həlim üzünü görəndə ürəyim sakitləşdi... Sumqayıt Şəhər Mədəniyyət və Turizm İdarəsində məsul vəzifədə çalışan Ceyran xanımı 2000-ci ildən tanıyırdım. Ara-sıra işlədiyi idarəyə gedəndə və ya hansısa tədbirdə görüşüb hal-əhval tutardıq. Bundan artıq ünsiyyətimiz olmazdı. Ancaq martın 19-da düz bir saat qırx dörd dəqiqə söhbətləşdik, dərdləşdik. Çox qürurlu görsənirdi Ceyran ana, axı ən sevdiyi mövzudan - Əbdülməciddən danışacaqdıq. Ceyran ana Əbdülməcidin uşaqlığından, yeniyetməlik illərindən söz açdı, onunla bağlı maraqlı hadisələri yada salıb danışdı.

Ceyran xanım Nadirşah kişi ilə 1986-cı ildə ailə qursa da, uzun müddət övladları olmurdu. Nəhayət, 1992 və 1993-cü illərdə Allah onlara iki oğlan uşağı nəsib edir. Böyük oğlanın adını Elçin qoyurlar. Kiçik uşağın adını qoyanda ailədə mübahisə yaranır. Ceyran xanım heç cür uzaq 70-ci illərdə qəfil ölən qayınatasının adını uşağına qoymaq istəmirdi. Deyir, "qorxurdum. Qorxurdum ki, mənim də uşağımın həyatı (dilim-ağzım qurusun) qəfil qırılar birdən. Nə deyim, intuisiya idi, ya şüuraltı bir hiss idi, bilmirəm, ancaq adı qoymaq istəmirdim". Sonradan razılaşır və uşağın adını Əbdülməcid qoyurlar. Ancaq nigarançılıq Ceyran ananı heç vaxt rahat buraxmır. Ana bu barədə belə deyir: "Uşağın adını qoyandan sonra daim nigarançılıq hissi ilə yaşamışam. Ona görə də uşaqlarımı həmişə nəzarətdə saxlamışam. Məktəbdə də, institutda da, hətta əsgərlikdə belə bir yol tapıb oğlumu nəzər dairəmdə saxlaya bilirdim. Bircə apreldə iki-üç gün nəzərətdən itirdim Əbdülməcidi, o da əbədi itki oldu".

Əbdülməcid doğulandan hamının sevimlisinə çevrilmişdi. Şirin və mehriban, bir az da çılğın uşaq olduğundan qohum-əqrəba, dost-tanış, şagird yoldaşları, müəllimlər onun xətrini çox istəyirdilər. Xeyirxah və ədalətli idi. O qədər xeyirxah idi ki, əksər hallarda başqalarının günahını üstünə götürər, cəzasını da tək çəkərdi. Ədalət prinsipini heç nəyə dəyişməzdi. Ən əziz adamı ədalətsizlik etsəydi belə, qəbul etməz, onunçun keçməzdi.

Əbdülməcidin ailəsində vətənpərvərlik kəlməsi adi söz deyildi. Burada elimizə-obamıza, dilimizə, musiqi və ədəbiyyatımıza, tariximizə sevgi, ağsaqqal və ağbirçəklərə, adət-ənənələrimizə hörmət böyük olub hər zaman. Belə bir ruhda böyüyən Əbdülməcid üçün vətənpərvərlik elə onun həyatı idi. Ceyran ana Əbdülməcidin uşaqlığından belə bir əhvalatı yadına salır: "İbtidai sinifdə oxuduğu vaxtda, hardansa Azərbaycan bayrağı tapmışdı. Ta əlindən bu bayraq düşmürdü. Onunla yatırdı, onunla dururdu. Sinifdə də qoyurmuş partanın üstünə. Bir gün müəllimsi Əbdülməciddən bayrağı çantasına qoymağı xahiş edir. Əbdülməcid təkliflə razılaşmır və deyir ki, müəllimə, bu, Azərbaycan bayrağıdır, hər zaman dalğalanmalıdır".

Səkkizinci sinifdə Əbdülməcid ailəsinə hərbçi olmaq istəyini elan etdi. Xahiş etdi ki, onu hərbi məktəbə qoysunlar. Valideynləri onun xahişini rədd etdilər və o zaman güc-bəla ilə fikrindən döndərə bildilər Əbdülməcidi. Ana həmin hadisələri yada salıb deyir, "Onda yaman inad edirdi. Elə hey deyirdi, torpaqlarımızı geri qaytarmaq, erməniləri isə ümumiyyətlə, Azərbaycandan çıxartmaq lazımdır. Bunu kim edəcək? Əlbəttə ki, biz - azərbaycanlılar! Mən də azərbaycanlıyam! Ona görə istəyim, arzum hərbçi olmaqdır, aparın hərb məktəbinə qoyun məni. Əl çəkmirdi. İnanın, onu güclə sakitləşdirdik. Nadirşah da, mən də ona deyirdik, oğlum daxil olub qurtararsan institutu, gedərsən əsgər. Ondan sonra hərbçi olmaq, zabit olmaq da asan olar səninçin. Bizim sözümüzə inandı və öz məktəbinə getməyə razılıq verdi. Bilirsiz, üzüyola uşaq idi. Valideynlərinin sözündən heç çıxmazdı". Ceyran ana deyir, tarix fənnini sevdiyindən ali təhsil almaq üçün humanitar sahəyə hazırlaşmaq istəyirdi. Mən qoymadım. Dedim, ay oğul, gəl sən mühəndis ol. Ölkədə mühəndislərə ehtiyac çoxdur. Razılaşdı. Çətin olsa da yaxşı hazırlaşıb daxil oldu Texniki Universitetə, müvəffəqiyyətlə də bitirdi oranı. Amma mən Əbdülməcidin seçiminə mane olduğuma görə, bu gün də, özümü çox qınayıram". "Bu hərbçi olmaq fikrindən də heç cür dönmürdü" - deyə ana fikrini davam etdi - "Mübariz İbrahimovun ölümü və göstərdiyi şücaət ona çox təsir etmişdi. Sanki bir neçə gün içində Əbdülməcid böyüdü, kişiləşdi, tamamilə dəyişdi. Xasiyyəti



də kəskinləşdi. Elə hey Azərbaycan himnini oxuyardı. Niyə belə edirsən soruşanda deyərdi, Mübarizin qanını bu ermənilərə bağışlamayacağam, hamısını gəbərdəcəyəm. Belə deyəndə qorxurdum ki, doğrudan da durub gedər".

Ancaq həyat göstərdi ki, Əbdülməcid öz inadkarlığından dönməyib və bu fikirlərində qəti olub. Elə əsgərliyə gedən kimi özünü döyüş bölgəsinə, Tərtərə saldırması da, müəyyən dövrdən sonra çavuşluq kurslarından keçməsi də, bunu tam təsdiqlədi.

"2-5 aprel döyüşlərindən bir həftə əvvəl bölüyümüz uğurlu təlimlər keçib, öz dislakasiya yerinə qayıtmışdı". - Şəhidin komandiri baş leytenant Azər Məmmədovun dediklərindən - "2 apreldə düşmən gözlənilmədən hücum edib ön xətti yarmaq istədi. Ancaq buna nail olmadı, biz ermənilərin hücumlarının qarşısını alıb əks-həmləyə keçdik. Qısa zamanda düşməni öz postlarınacan qovduq. Erməniləri öz səngərlərində qırırdıq. Bütün gecəni döyüş davam etdi. Səhər güllə yarası aldım. Mən yaralananda Əbdülməcid də daxil olmaqla əsgərlərimin hamısı ətrafımda idi. Düşmənlə atışa-atışa məni tək qoymadılar. Belə çətin məqamda Əbdülməcidin dediyi sözləri heç unutmuram. O dedi: "komandir darıxmayın, biz sağ qalacağıq, bir-bir onları gəbərdəcəyik". Həmin gün komandirlərini döyüş meydanından çıxaran Əbdülməcid əsgər dostları ilə birgə böyük şücaət və qəhrəmanlıq göstərib düşmənin xeyli hərbi texnikasını və canlı qüvvəsini məhv etdi. Ancaq özü sağ qala bilmədi. O, erməni mərmisinin qəlpələrinə tuş gəldi... Allah bütün Azərbaycan şəhidlərinə rəhmət etsin!

**Söhrab SƏFİYEV,**
**"Respublika".**

Gintaras Visotskas: